# MÜCƏRRƏD OBRAZLAR DÜNYASI

Nəsibə Şükürova,
ADRA-nın dissertantı
E-mail: *s.nesibe.s@mail.ru*

Azərbaycan keramikasında rəssamların müxtəlif mövzulara rəmzi-fəlsəfi yanaşma tərzi üstünlük təşkil edir. Müəlliflər öz mövzularını bütünlüklə ətrafdan ayırıb onları tam aça biləcək bir obraza tabe etdirərək simvollaşdırırlar. Bütün bunlar böyük sənətkarlıq zəminində mümkündür ki, vacib şərtlərdən biri yenə də formanın mövzuya, ideyaya tabe olmasıdır. Rəssamlarımız sənətkarlıqla yanaşdıqları mövzuları təxəyyül süzgəclərindən keçirərək yanaşma tərzlərinə görə rəngarəng obrazlar yaratmışlar. Həmin obrazlar arasında mücərrəd və rəmzilərin vəhdəti rəssamın mövzuya yanaşmasının ən geniş yayılmış forması kimi müşahidə edilir. Hər kəs üçün qəbul olunan rəmzi obrazlar bəzən rəssamın düşüncə tərzindən, fəlsəfi baxışından asılı şəkildə kəskin dəyişir. Bu dəyişkənlik Azərbaycan keramikasında rəmzi-fəlsəfi ifadənin bədii həllinin nə qədər zəngin və çoxşaxəliliyini ortaya çıxarır ki, bu da sənətkarlarımızın yüksək bədii təxəyyülünün, həyata fəlsəfi baxışın nəticəsi kimi qiymətləndirilir. Daha çox mücərrəd, kosmos, kainat, sülh, müharibə mövzularında yaratdıqları rəmzi-fəlsəfi əsərlər öz bədii həllinin zənginliyinə görə diqqət çəkərək rəssamın iç dünyasını, onun təxəyyülünün dərəcəsini ifadə edir.

Bakı şəhərinin Qaradağ rayonunda, yarımsəhra bir yerdə, metanol emal edən zavodun ərazisində qeyri-adi, açıq hava altında heykəltəraşlıq park-muzeyi yerləşir. 2012-ci ildə yaradılmış "Küləyin ərazisi" adlanan park-muzeydə müasir incəsənətimizin tanınmış nümayəndələrinin böyük, rənglənmiş heykəlləri, metal və kerami-



**Eldar Məmmədov.
Frtınalı küləklərə nəzarət edən. 2012**



**Eldar Məmmədov.
Gizli küləklərin istiqamətlərinə nəzarət edən. 2012**



M.T. Məmmədov.
Mücərrəd heyvanlar

kadan hazırlanmış əsərləri nümayiş olunur. Əsas mövzusu külək olan bu əsərlər gözə görünməyən təbiət hadisəsinin təsəvvürü ilə rəssam təxəyyülünün yaratdığı mücərrəd obrazların ən gözəl nümunələrini özündə cəmləşdirib. Bundan əlavə, işlərin elitarlığına və müasir incəsənət aləminə aid olmasına baxmayaraq, heykəllər təbii və açıq məkanda harmonik şəkildədir. Əsərlərə baxarkən küləklə vəhdət təşkil etdiyini düşünür və hava axınına bu qədər yaxın, hətta ayrılmaz görünən bu obrazları indiyə qədər görmədiyinə təəccüblənirsən. Müxtəlif metal parçalarından yaradılmış əsərlərin içində daşın əzəmətini qoruyub saxlayan monumental keramika nümunələri çox orijinaldır. Açıq səma altındakı park-muzeydə keramik əsərlərin müəllifi Eldar Məmmədov son dərəcə maraqlı, bizim sivilizasiyadan uzaq, kosmik dünyanı xatırladan obrazlar yaradıb. “Fırtınalı küləklərə nəzarət edən” (1,15 x 0,50 x 0,47m, 2012) əsəri sanki təbiətin güclü və qarşısı alınmayan hadisəsi ilə mübarizə apara biləcək yeganə əzəmətli monumentdir. Bu obraz real dünya ilə heç bir əlaqəsi olmayan təsvirə malikdir. Göz önündə öz əzəməti və qeyri-real təsviri ilə, adından göründüyü kimi, fırtınalı küləklərə nəzarət edə biləcək bir obraz canlanır. Hansı ki dərin relyeflər, qabarıqlar və müxtəlif texniki üsullardan istifadə olunub. Texniki cəhətcə yüksək səviyyəli əsər şamotdan hazırlanıb.

Eldar Məmmədovun “Uçuş maşını” (1,65 x 1,14 x 1,14m, 2012) adlanan digər yaradıcılıq məhsulu da orijinallığı ilə seçilir. Kompozisiyada yuxarıda yerləşən pərləri ilə sanki yad planetlərdən uçub gələn, rəssamın dili ilə desək, qəribə uçuş maşınları təsvir edilib. Sənətkarın fantaziyası inandırıcı görünür. Çünki burada göyə millənmiş, öz qəribə pərləri ilə diqqəti çəkən, uzadılmış forma üzərində müxtəlif dekoru xatırladacaq “uçuş maşınının” reallıqla heç bir əlaqəsi yoxdur. Kompozisiya elə ilk baxışdan Yerə qonaq gəlmiş yadplanetlilərin daş obrazları təəssüratını yaradır. Müəllifin yüksək təxəyyülünün bəhrəsi olan əsər bədii cəhətcə çox maraqlıdır. İşdə olan səmimiyyət obrazların tamaşaçı ilə əlaqəsinə yardım edir. Əsər şamotdan hazırlanıb. Yüksək səviyyədə icra olunmaqla kompozisiya baxımından da çox mürəkkəbdir. Mücərrəd obrazları təsvir edən ən uğurlu işlərdəndir.

Rəssamın “Gizli küləklərin istiqamətlərinə nəzarət edən” (1,10 x 0,45 x 0,52 m, 2012) əsəri digərlərindən öz yığcamlığı ilə seçilir. Burada forma əsasən baş və boyunu xatırladır. Fərqli relyeflər, cızmalarla işlənmiş baş hissədə burun və dodağı xatırladacaq qabarıqlar var. Öz gizli, qeyri-müəyyən surəti ilə sanki gizli küləklərə nəzarət edən obrazdır. Qırmızı şamotdan hazırlanıb, göy, qırmızı, yaşıl və oxra rənglərindən istifadə olunub.

“Baş mühəndis” (0,95 x 0,41 x 0,47 m, 2012 ) isə forma bütövlüyü ilə fərqlənir. Bu sanki uzaq qalaktikadan Yerə enmiş, qorxunc forması ilə insanı lərzəyə salan, hər şeyi etməyə qadir bir mühəndis obrazının baş formasıdır. Dərinlikdən boru şəklində çıxan gözlər və ondan aşağıda burunu xatırlada biləcək piramida forması yenidən təkrarlanır. Ətrafda müxtəlif relyeflər, qabarıqlar və cızmalar bu formaya fərqli görkəm verir. Hər şeyə qadirlik iddiasındakı obraz ilk baxışda insanı vahiməyə sala bilir. Mücərrəd, kosmik obrazlar içində öz dolğunluğu ilə seçilən “Baş mühəndis” əsəri texniki cəhətdən yüksək səviyyədədir. Əsərin hazırlanmasında şamotdan istifadə olunub.

Eldar Məmmədovun bədii orijinallığı ilə seçilən daha bir işi “Küləklər məkanına nəzarət edən” (1,12 x 0,83 x 1,18 m. 2012) adlanır. Bu əsər fırtınalı küləklərə, gizli küləklərə nəzarət edən obrazlardan çox fərqlənir və mürəkkəb quruluşa malikdir. Üstdə cərgələnən, dəbilqəyə oxşar örtükdəki yumru formalar, yanlarda böyük oyuqları olan kəpənək qanadlarını xatırladan çıxıntılar var. Mərkəzdə uzunsov oyuğun içində müxtəlif həndəsi formalardan ibarət qabarıqlar yerləşir. Uzunsov oyuğun altında üzü aşağı uzanan xortumabənzər bir forma verilib. Müxtəlif dəyirmi formalar, qabarıq relyeflərlə işlənmiş kompozisiya bədii cəhətcə çox maraqlıdır. Bu əsərə baxarkən rəssam təxəyyülünün hüdudsuzluğunu görürük. Real dünyanın heç bir obrazına bənzəməyən bu ümumiləşdirmələr digərləri kimi bədii təfəkkürün mücərrəd təzahürüdür. Sanki küləklə təmasdan yaranıb və elə küləyin özü qədər mürəkkəbdir. Məhz bu

eynilik və mürəkkəblik ona küləklə mübarizə aparmağa imkan verir. Şamotdan hazırlanan əsər təbii rəng tonunda daha bədii görünür. Əsər texniki tərəfdən də kamildir.

Açıq səma altında yerləşən park-muzeydə metal ilə işlənən əsərlərlə yanaşı, keramika rəssamı Eldar Məmmədovun yaratdığı bu ecazkar mücərrəd obrazların hər biri həqiqətən də bir incəsənət əsəridir.

Mücərrəd obrazları ilə maraq doğuran tanınmış keramika rəssamı Mir Teymur Məmmədovun üç hissədən ibarət "Mələklər" kompozisiyası öz ifadə həllinə görə diqqətəlayiqdir. Rəssamın rəmzi olaraq işlədiyi "Mələklər" forma etibarilə aşağıdan dar, yuxarı qalxdıqca enlənən oval forma ilə tamamlanır. Hər üç formanın yuxarı uc hissəsində kiçik kürə forması yerləşdirilib – ən hündür və kiçik hissələrdə mərkəzdə, orta hissədə isə sol tərəfdə. Yuxarı hissədə kürələrin ətrafında dalğalanan qanadlar verilib ki, bu da kompozisiyanın mövzusunun açılmasına kömək edir. Bədii cəhətdən olduqca maraqlıdır. Kompozisiyanın rəng həlli onu zənginləşdirərək ifadə tərzini daha da gücləndirir.



Afaq Hüseynova.
Humayun

Rəssamın əsərləri arasında mücərrəd heyvan obrazları maraq doğurur. Bunlardan altı ayaqlı, iki xortumlu, üç buynuzlu və təpəsində üç uzun oval şəkilli gözləri olan fil, dəniz səkkizayaqlısına bənzər, lakin ayaqlardan başqa ön və arxa tərəflərdə çox sayda qayçıvarı plastik xortumları, baş tərəfdə ötürücüləri xatırladan dörd uzunsov çxıntılı həşəratabənzər heyvan, dörd ayaqlı, belinin ortasında oyuqları və çıxıntıları olan, başında kiçik buynuzları, iki gözü, kənarlarda isə uzanaraq qalxan daha iki göz oyuqlu bu mücərrəd, qeyri-müəyyən heyvan fiqurları rəssamın təxəyyülünün genişliyini göstərir. Fərqli rəng həlli və formalar işin maraqlı həllini təşkil edir. Ümumilikdə rəssamın yaradıcılığına nəzər saldıqda yüksək texniki həll və peşəkarılq hər bir əsərdə özünü büruzə verir. Eyni mövzunun müxtəlif forma və obrazlarda işlənməsi rəssam təxəyyülünün zənginliyinin ifadəsidir.



Eldar Məmmədov.
Uçuş maşını. 2012

Müstəqillik dövrü Azərbaycan keramikasında rəmzi-fəlsəfi obrazları ilə özünəməxsus yer tutan sənətkarlarımızdan biri də Afaq Hüseynovadır. Rəssamın yaradıcılığının əsas qayəsini təşkil edən kosmos, kainat, özünüdərk insanı düşünməyə vadar edir. Bu əsərləri ilə bəzən unutduğumuz bir çox şeyləri, yaradılışı, insanın kosmosun, kainatın bir parçası olmasını, hər şeyin bir sistemə bağlılığını xatırlatmağa çalışır. Bütün ideya və düşüncələrini o, simvolik obrazlar şəklində əsərlərinə köçürür.

"Humayun" adlı kompozisiyasının mərkəzində kainatın sirli qüvvələri tərəfindən yaradılan, insanlara həmişə sevinc bəxş edən əfsanəvi humay quşu həyatın rəmzi daşıyıcısı kimi kainatın mərkəzində təsvir olunmuşdur. Qalaktikanın göy-mavi çalarları mərkəzində işıq saçan humay quşunun zərif lələklərinin dinamik

təsviri həm də dünyanın, kainatın daimi hərəkətini simvolizə edir. Planetin rəmzi mənada nəzarətçisi Humay quşu digər bir buludda fərqli şəkildə verilmişdir. Müxtəlifrəngli kainatın mərkəzini göstərən, açıq-qəhvəyi rəngli bulud üzərindəki tünd-göy ləkə bütün yaradılışı idarə edən qüvvə kimi canlandırılıb. Hər şeyin kosmos, yaradan tərəfdən göz altına alındığını düşünən sənətkar digər bir əsərində kainatın təsviri sayılan dairəvi formanın mərkəzində onu nəzarətdə saxlayan qüvvəni göz şəklində təsvir etmişdir. Beləliklə, yaradılan hər şeyin kosmosla əlaqələndirilərək obrazlı ifadəsinə çalışılıb.

Afaq Hüseynova bu sirli dünyanın daşıyıcısı və ötürücüsü olaraq qadın obrazlarını ilahiləşdirmişdir. Açılan hər yeni səhifədə, görülən hər bir işdə Tanrının yaratdığı qadının rolu danılmazdır. Sənətkarla görüşümüz zamanı əsərin yaranması səbəblərindən danışdı. “Üçlük” kompozisiyasındakı Tanrı, İsa və Məryəm obrazları dində, müqəddəs kitablarda həqiqəti gizlətmək üçün dəyişiklikərə və bütün bunların əsl mahiyyətinin gizlədilməsinə qarşı bir etirazdan yaranıb. Rəssamın fikrincə, Yer üzünə göndərilən bütün qanunlar, dinlər eyni olmalı və insanlar üçün qeyri-müəyyən heç nə qalmamalıdır. “Üçlük” haqqın-həqiqətin hər yerdə bərqərarı arzusu ilə işlənən rəmzi, fəlsəfi bir əsərdir. Plastik formalı lövhələrdən hazırlanmış, müxtəlif duzlar və qızılı rənglə tona salınmışdır. Kompozisiyanın birində göylərdən Yerə soyuq nəzərlərlə baxan mücərrəd obrazın rəmzi təsviri verilib. Yerdəki fitnə-fəsadlardan narahatlığın ifadəsi olan obraz öz müəmmalı niyyət və münasibəti ilə diqqət çəkir. Müəllifin açıqlamasına görə, kosmosdan, bəlkə də hansısa yad planetlərdən insanlara, Yerə zillənən soyuq, məchul baxışlar bizi qane etmir. Bu, qıraqları sərbəst formada parçalanmış, sifətində göy rəngdə gözləri olan qeyri-real obrazdır. Kompozisiyada verilən obrazda gözlər boz-qara, ətraf isə göy rəngdədir. Göründüyü kimi, rəssamın həyata baxışı fərqlidir. O öz dünyası və bu dünya ilə bağlı fəlsəfi fikirləri köçürür. Belə əsərlərdən daha biri “Ruhlar aləmi” adlanır. Burada yaxşı əməlli insanların ruhları gözəl, yüngül, bəyaz buludlar formasında, xəbis, paxıl, pis adamların ruhları isə qara, kobud şəkildə təsvir olunmuşdur. Saf yüngül buludlar yuxarı, qara qüvvələrlə yüklənmiş qaba fiqurlar isə aşagı yuvarlanmaqdadır. Müəllif insan əməllərinin pis və yaxşılığını dəyərləndirərək ruhları da müvafiq rəmzi obrazlarda verir. Həmin ruhlar şərti olaraq öz rəngləri ilə ağ və qara, ağır və yüngül, cənnət və cəhənnəm kimi ifadələnir. Kiçikölçülü insan fiqurları və yayılmış gil lövhələri ilə buludlar təsvirlənmiş kompozisiyada müxtəlif duzlar və tündrəngli şirələrdən istifadə edilib.

Yaradıcılığın əsas qayəsi: insan hər zaman təbiətlə, kainatla təmasdadır. Rəssam üçün insan ruhu, zəkası cismin səviyyəsindən çox-çox yüksəklərdə durur. Sənətkarın “Minarələr” kompozisiyası, əslində, şərti olaraq Yerdən göylərə millənən enerjinin ötürücü xarakter daşıdığını və insan varlığının, ruhunun kainatla bağlılığını ifadə edir. Məhz buna görə də Allah evlərində göylərin, yaradanın, özünüdərkin, Allaha yaxınlığın göstəricisi uca minarələrdir ki, kompozisiyada buna işarə edilmişdir. Yerlə göy arasındakı bütün bu münasibətlər rəssamın fəlsəfi baxışı əsasında rəmzi aşağı hissədə uzun, yuxarı hissədə isə üzərində müxtəlif naxış və kəsikləri olan qönçəşəkilli minarə formasında ifadələnib. Formalar üzərində müxtəlif ornament və rəng çalarları işin bədii ifadəsini daha da rəngarəng etmişdir.

Yaradıcılığında haqqı, həqiqəti, bəşəri duyğuları özünəməxsus üslubda materiala köçürərək rəmzləşdirən və hər zaman bu suallara cavab tapmaq arzusunda olan sənətkarın “Pir ağacı” kompozisiyası haqdan dilənən diləklər simvoluna çevrilən pir ağacını ifadə edir. Nəticəsi uca Yaradandan gözlənən el arasında ağaca parça bağlanması mərasimi yeni forma və ifadələrlə “Pir ağacı” kompozisiyasının yaranmasına səbəb olub. Pir ağacı rəmzi Yeri, kainatı özündə əks etdirən kürə formasında, buna bağlanan parçalar isə oyuqlardan asılan hər arzunun kiçik işarəsi olan elementlər şəklində verilmişdir. Zəngin rəng çalarları, çoxsaylı kiçik elementlər əsərin bədii xüsusiyyətlərini xeyli artırır.

Həyata, kainata fərqli baxışlara malik Afaq Hüseynova dərin fəlsəfi fikirlərini keramika janrında gözəl ifadə etmişdir. Sərbəst üslubu, maraqlı ifadə tərzi ilə seçilən əsərlər rəssamın fikir müstəqilliyinin, başqalarına bənzəməmək cəhdinin uğurlu inikasıdır. ❖

**Резюме**

В азербайджанской керамике художники, имеющие свой отличный от других взгляд на жизнь и вселенную, прекрасно отразив свои глубокие философские мысли в виде абстрактных образов, создали ценные произведения искусства. Эти произведения, имеющие свободный стиль и интересный способ выражения, отразили в себе в полной мере свободомыслие художников и превратились в эталоны высокого искусства.

**Ключевые слова:** керамика, художник, образ, произведения искусства.

**Summary**

Arousing symbolic-philosophical images our artisans who occupy a significant place in the ceramics of Azerbaijan in diferrent way of thinking to the world created magnificent works of art. They are called artisans` self-dependent ideas and thoughts that are the result of the creative imagination sucessfully turned to a work of art because of unrestricted style and themes that form the basis of the creativeness of the artists.

**Key words**: ceramic, artist, imagination, work, art.